REDEMOS

RECONFIGURING EU DEMOCRACY SUPPORT. TOWARDS A SUSTAINED DEMOS IN THE EU'S EASTERN NEIGHBOURHOOD

**Siyasət İcmal Sənədi 1**

# 2005-ci ildən 2022-ci ilə qədər Aİ Şərq Qonşuluğu ölkələrində demokratiyaya yardımın tendensiyaları və modelləri

Marina Rabinoviç və Stiven Kimmel

Aprel 2025




Funded by the European Union

The REDEMOS project has received funding from the European Union’s Horizon Europe research and innovation programme under grant agreement No 101061738. The Associated Partner University of Surrey has received funding from UK Research and Innovation (UKRI) under the UK government’s Horizon Europe funding guarantee under grant number 10040721. The Associated Partner University of St. Gallen has received funding from the Swiss State Secretariat for Education, Research and Innovation (SERI). Views and opinions expressed are, however, those of the author(s) only and do not necessarily reflect those of the European Union, UKRI and SERI. Neither the European Union nor UKRI or SERI can be held responsible for them.

# Ümumi mənzərə

Son beş ildə Aİ ilə şərqdə qonşu olan altı ölkəyə verilən Rəsmi İnkişaf Yardımının (ODA /RİY) həcmi durmadan artmışdır. Lakin, birlikdə dünyanın ən böyük RİY donorları olan Aİ və onun üzv dövlətləri donorların çoxluğu və onların müxtəlif prioritetləri səbəbindən yardımı səmərəli şəkildə əlaqələndirməkdə çətinliklərlə üzləşirlər. Demokratiyaya yardımın özünün mübahisəli xarakterini və Rusiyanın regionda sabitliyi pozan təsirini nəzərə aldıqda, **uzlaşdırılmış demokratiyaya yardım xüsusilə mürəkkəb məsələdir**. **Demokratiya yardımının səmərəli idarə olunması üçün demokratiya modelləri barədə ortaq anlayışın olması** və onun insan hüquqları, qanunun aliliyi və gender bərabərliyi kimi əlaqəli anlayışlarla kəsişməsinin dərk edilməsi **zəruridir.**

Bu məsələləri daha yaxşı başa düşmək üçün REDEMOS tədqiqat qrupu **2005-2022-ci illər üzrə 1474 demokratiyaya yardım** layihələrini əhatə edən **məlumat toplusu** əsasında **Aİ-nin Şərqi Qonşuluğu ölkələrində demokratiyanın maliyyələşdirilməsi modellərini** təhlil etmişdir. Buraya Aİ institutlarının (184,25 milyon ABŞ dolları), Aİ üzv dövlətlərinin (146,62 milyon ABŞ dolları), ABŞ-ın (139,07 milyon ABŞ dolları) və beynəlxalq təşkilatların (26,33 milyon ABŞ dolları) töhfə göstəriciləri daxil olmuşdur. Təhlil demokratiyanı altı model üzrə, seçki əsaslı, azadlıqçı, iştirakçı, bərabərlikçi, sülhquruculuğu əsaslı və feminist, təsnif edir, həmçinin yaxşı idarəetmə, insan hüquqları və qanunun aliliyi sahələrində maliyyələşdirmə layihələrini nəzərdən keçirir.

Nəticələr Aİ-nin şərq qonşuluğundakı ölkələrdə demokratiyaya yardımın səmərəliliyini maksimum artırmaq üçün **donorların əlaqələndirməsinin təkmilləşdirilməsinə, standartlaşdırılmış hesabatlara və prioritet sahələrdə davamlı qarşılıqlı fəaliyyətə** ehtiyacı vurğulayır.

## Əsas rəylər

- Demokratiya yardımının təhlili İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının **(İƏİT) kitabxanasında layihə adları və təsvirləri üçün vahid standartın olmaması** çətinliyi ilə üzləyir. Aİ və üzv dövlətlərin hesabatlarında uyğunsuzluğu nəzərə aldıqda, bu fakt problemi daha da dərinləşdirir. Bəzi layihələr maliyyələşdirəcəkləri tədbirlər haqqında aydın təsəvvür yaratsa da, digərlərinin qeyri-müəyyən təsvir verməsi və ya heç bir təsvir verməməsitədqiqatçılar və siyasətçilər üçün layihələrin aktuallığının və səmərəliliyinin qiymətləndirməsini çətinləşdirir.

- **Aİ-nin şərq qonşuluğunda yerləşən ölkələrdə demokratiyaya yardımın maliyyələşdirilməsi 2005-2022-ci illər arasında əhəmiyyətli dərəcədə artmışdır:** Aİ yardımı 2015-ci ildə 23,7 milyon ABŞ dolları təşkil edərək zirvə göstəricisinə çatmışdır. Aİ üzv dövlətlərinin yardımı 2021-ci ildə rekord həddə çataraq cəmi 22,2 milyon ABŞ dolları təşkil etmişdir. ABŞ-ın isə ən yüksək səviyyəsinə 20,3 milyon ABŞ dolları məbləğində yardım ilə çatmışdır. Bu cür irəliləyiş bir tərəfdən təşəbbüsləri genişləndirmək üçün imkanlar yaratsa da,, digər tərəfdən donor əlaqələndirməsi baxımından çətinliklər yaradır. Maliyyələşdirmə prioritetlərinin dəyişməsi və fərqli demokratiya modelləri təkrarlanmanın qarşısını almaq və təsiri maksimum dərəcədə artırmaq üçün daha yaxşı əlaqələndirmə tələb edir.

- 2005-2022-ci illər arasında Aİ-nin Şərq Qonşuluğu ölkələrində demokratiyaya yardım layihələrinin ümumi sayının 1000-dən çox olmasına baxmayaraq, onlardan yalnız 65-i 1 milyon ABŞ dollarından daha çox maliyyə almışdır. **Bu layihələrin əksəriyyəti, xüsusən də seçki əsaslı və feminist modellər üzrə əhəmiyyətli davamlılığın olmaması ilə yanaşı qısamüddətli və pərakəndə olmuşdur.** Bu, onların uzunmüddətli təsiri ilə bağlı şübhələr və seçki dövrləri və böhran müdaxilələri xaricində davamlı əlaqənin zəruriliyi ilə bağlı narahatlıqlar yaradır.

- Seçki hüquqları, partiyaların maliyyələşdirilməsi, mediadan istifadə, seçkilərin müşahidəsi və təşkilati imkanlar daxil olmaqla, seçki demokratiyasının geniş miqyasına baxmayaraq, **2005-2022-ci illər arasında Şərq Qonşuluğunda ölkələrdə seçkilərə dəstək üçün Aİ və üzv dövlətlərin maliyyəsi minimal olub və nadir hallarda ildə 1 milyon ABŞ dollarını keçib**. Bir neçə diqqətəlayiq sıçrayış ilk növbədə Ukrayna seçkiləri ilə bağlı olub, xüsusilə də Rusiyanın seçkilərə müdaxiləsinə qarşı mübarizədə daha çox iştiraka ehtiyac olduğunu göstərir.

- Aİ-nin demokratiyaya yardımının təhlili, donorların siyasi hadisələrə uyğunlaşdığı, eyni zamanda müxtəlif demokratiya modelləri arasında uzunmüddətli əlaqəni qoruduğu strateji və reaktiv yanaşmalar arasında tarazlıq yaradan mürəkkəb, çox modelli maliyyələşdirmə mənzərəsini ortaya qoyur.

# Siyasət üzrə tövsiyyələr

2005-2022-ci illər üçün İƏİT kitabxanasında qeydiyyatdan keçmiş bütün 1474 layihənin empirik təhlili əsasında REDEMOS aşağıdakı siyasət üzrə tövsiyələri verir:

- İƏİT kitabxanasına daxil ediləcək Aİ və Aİ üzv dövlətlərinin demokratiyaya yardım layihələri üzrə məlumatların həcmi, habelə onların təsnifatı üzrə vahid standartlar **tətbiq edilsin**.
- Aİ, onun üzv dövlətləri və Aİ-nin şərq qonşuluğunda yerləşən ölkələrdə fəaliyyət göstərən digər subyektlər arasında maliyyələşdirmə prioritetlərinin daha çox əlaqələndirilməsinin **təmin edilsin** və demokratiyaya yardım layihələrinin mahiyyəti daha yaxşı əlaqələndirilsin.
- Aİ və Aİ üzv dövlətlərinin Aİ-nin Şərq Qonşuluğu ölkələrindəki seçki modelində, xüsusən də seçki prosesin rəqəmsal təhlükələrə qarşı dayanıqlılığı artırmaq məqsədilə iştirakı **gücləndirilsin**.
- Avropa Komissiyası və Aİ üzv dövlətləri üçün demokratiyaya dəstəyin davamlılığını təmin etməyə imkan verən yollar, xüsusən də dəstək tədbirlərinin səmərəliliyinin və təsirinin artırılmasına töhfə verdiyi hallarda, **araşdırısın**.
- Aİ Şərq Qonşuluğundakı ölkələrdə və onun hüdudlarından kənarda prioritet islahatlara uzunmüddətli dəstək üçün mümkün model kimi "Avropa ilə U-LEAD" proqramı çərçivəsində Ukraynada əksmərkəzsləşdirmə və yerli səlahiyyətlərin dəstəklənməsi üzrə çoxtərəfli fəaliyyət nəzərdən keçirilsin.
- Aİ və onun üzv dövlətlərinin Şərq qonşuluğu ölkələrindəki fəaliyyətində uzunmüddətlilik və fasiləsizliyi mütləq imperativ kimi qəbul etməkdən çəkinilsin, əvəzində isə layihələrin uzunmüddətli perspektivdə aktuallığını və mümkün töhfəsini qiymətləndirmək üçün portfel qiymətləndirmələrindən istifadə edilsin.

Tam araşdırmanı – **REDEMOS proqram sənədi: Aİ, üzv dövlətlər və beynəlxalq təşkilatların Aİ-nin şərq qonşuluğundakı ölkələrə yardımın tendensiyaları, modelləri və koordinasiyası** – aşağıdakı keçiddən əldə etmək mümkündür: https://redemos.eu/resources/publications/policy-papers/

**REDEMOS: REconfiguring EU DEMOcracy Support.**
**Towards a sustained demos in the EU's Eastern Neighbourhood**
REDEMOS- 101061738
HORIZON-CL2-2021-DEMOCRACY-01-04

**Dr Mădălina Dobrescu, NTNU**
**info@redemos.eu**

redemos.eu @REDEMOS_eu REDEMOS Horizon Europe Project